**UOT 81 41; 801. 7**
**https://doi.org/10.59849/2311-8482.2025.1.57**

**FİRUDİN RZAYEV***

# QƏDİM SAK PROTOTÜRKLƏRİ İLƏ BAĞLI TANRILARIN NAXÇIVAN ƏRAZİSİ TOPONİMLƏRİNDƏ İZLƏRİ

*Məqalədə əski türk mifik təfəkküründə xüsusi yeri olan Sak türklərinin mifoloji inanclarında yer alan* Sax, Şixu, Suriyaş, *Sax-Suriyaş qədim tanrı adlarının Naxçıvan ərazisi toponimlərindəki izlərindən bəhs olunur. Qədim yazılarda adı keçən bu tanrı miflərinin tarixi m.ö. IV minilliyə söykənməklə, ərazi toponimik adlarında günümüzə qədər qalmışdır. Bu qədim mifin tarixi proseslərdə Sak tayfa adında yer alması, Naxçıvanla bağlılığı indiyədək Azərbaycan və türk alimləri tərəfindən tədqiqi və adların izahı verilməmişdir. Məqalədə qədim Naxçıvan ərazisi toponimlərinin oykonim, hidronim və oronim qatlarında bu tanrı adının mövcudluğu dil və tarixi faktlar əsasında təsdiq edilir.*

*Tədqiqatda Naxçıvan coğrafi arealında bu miflə bağlı toponimlərin etimoloji izahları verilir.* Sax, Suriyaş, *Şixu tanrıları adlarının prototürklərlə bağlı adlarda qalması bu mifik inancın qədimliyini sübut edir. Azərbaycan, Naxçıvan, Türkiyə, Altay və digər türklərdə bu adın yeri məqalədə elmi faktlarla əsaslandırılır.*

**Açar sözlər:** *Sax, Suriyaş, Şixu, Azərbaycan, Naxçıvan, Türkiyə, oykonim, oronim, hidronim.*

## Giriş

Özünün m.ö. V minilliyin sonu IV minilliyin əvvələrinə söykənən tarixi, dili, məişəti və mədəniyyəti ilə qədim Naxçıvan ərazisi toponimlərində adlarını əbədiləşdirmiş və buradakı əhalinin istər etnogenezində xüsusi rolu olmuş tayfalardan biri də qədim **Sak** türkləri və onların daşıdığı mifoloji inanclardır. Naxçıvan ərazilərində XIX-XXI əsrlərdə aparılmış arxeoloji qazıntılarda bu tayfalarla bağlı aşkarlanan mədəniyyət nümunələrinin tarixi m.ö. III minilliklərlə səsləşdiyi, elmi baxımdan təsdiq edilmişdir [13, s. 17-18]. Bura onların tayfa kimi formalaşmasının 2 min illik dövrünü də əlavə etdikdə, bu tayfalar m.ö. V minillikdə tarix səhnəsində olmuşdur.

Lakin dəfələrlə qeyd etdiyimiz kimi rus siyasəti 2 yüzillik bir dövrdə Naxçıvan ərazisinin xeyli sayda məntəqə adlarını dəyişdirmiş, buradakı tarix, dil ünsürləri ilə yanaşı, mifik izlərimiz də müəyyən qədər yaddaşımızdan uzaqlaşdırılmışdır. Bu siyasi gedişlə adların fars, erməni və gürcü sözləri ilə əvəzlənməsi, onlara aid edilməsi, sadəcə xristian faktorundan irəli gəlirdi. Bu siyasi gedişin mahiyyəti türk tarixini ərazilərdən uzaqlaşdırmaq, bu ərazilərə sahib olmaq məqsədini daşımışdır. Bütan bu siyasi oyunda istər ərazinin qədim türk arxeoloji mədəniyyət nümunələrinin, istərsə də etnoqrafik mədəniyyət nümunələrimizin onlara aid edilməsi də, bu xalq mədəniyyətinin son dövrlər yaranması ideyasının ortaya qoyulmasında əsas amillərdən biri olmuşdur.

Məhz adlarımızın dəyişdirilməsi, yeni adların etimoloji izahları və əski tayfa adlarından yaranmış məntəqə adlarımızın səthi etimoloji izahları ucundan, sakların hansı kökdən, soydan gəldiyi, hansı tayfaların varisi və ya ululları, hansı xalqın təşəkkülünün, dilinin təkamülünün iştirakçıları olması, eləcə də mifik düşüncəsi haqda fərqli fikirlər, yanlış konsepsiyalar irəli sürülmüşdür. Bu baxımdan sovetlər dövrünün tarix kitabları, tədqiqat əsərləri, mifologiyaya dair ensiklopedik əsərlərdə kiçik etnik qruplar bu mədəniyyət nümunələrimizə “sahibi” olmaqla, dilimiz, tariximiz, mifoloji düşüncəmiz, məişət və adətlərimiz bizdən uzaqlaşdırılmışdır. Bu siyasi proses Sak türklərindən də kənarda qalmamışdır.

## Tarixi mənbələrdə Sak türkləri

Bütün bunlara baxmayaraq, tarixin atası sayılan Herodotun “Tarix” əsərindəki məlumatlarında Qafqazda 14-cü dairə Saqarti, 15-ci dairə isə Sak və kaspilərə məxsus ərazi kimi verilmiş, sakların kimmerləri Kiçik Asiyaya qovduğu qeyd edilmişdir [10, I, 103,153; III 93; VII, 64, 85]. Lakin burada onların mifik baxışları məsələsinə toxunulmamışdır.

Biz “Ümumdünya tarixi” kitabında qədim Sak türkləri ilə bağlı ərazilərdə Saqalassa, Saqarti, Sakkara, Sakkız kimi şəhər və ərazi adlarına təsadüf edirik ki, bu sakların geniş əraziyə mənsub olduqlarını göstərir. Məlumatdakı **Sakkız-**“İşıqlı saklar” ərazisinin Urmiya ətrafında yerləşdiyi göstərilməklə, o dövr bu Naxər-Naxçıvan ərazisi daxilində geniş bir ərazi olmaqla, tarixi qaynaqlarda yer almışdır. Lakin burada da Sak türklərinin tarixi, eləcə də onlarla bağlı hər hansı bir mifoloji inanc haqqında heç bir fikrə və tarixi məlumata rast gəlmirik [23, s. 22, 149, 451, 531].

Yunan coğrafiyaçısı K.Ptolomeyin yazılarında da Qafqazın cənub ətəklərində **Sakan** və **Saran** adda tayfaların yerli sakinlər olaraq məskunlaşdıqlarından bəhs edilir. Lakin, biz burada da Saran, Sak tayfalarının **Sax-Suriyaş** mifoloji inancları, bu inancın mifdəki yeri məsələsi barədə hər hansı bir fikrin söyləndiyini görmürük [17, XXIV, 252, 254. V 8 16]. Təbii ki, bu siyasi gediş qədim mənbələrin təcüməsində də ayrıca yer almış, qədim türk tarixi və mifoloji mədəniyyəti tərcümədən kənarlaşdırılmışdır.

Əgər göstərilən bu məlumata diqqət etsək, tayfaların məskun olduğu ərazi, qədim Naxçıvan-Naxər ölkəsi əraziləridir. Biz mənbələrdə dəfələrlə skif-sakların birlikdə, bir ittifaqda olduqlarına təsadüf edirik ki, onların bəzən eyni tayfalar olduğu, Albaniya ərazisindəki Sakasena əyalətinin isə, skif çarlığının mərkəzi olduğu göstərilir. Bütün bu tarixi faktlara baxmayaraq, bu məlumatlarda Sak türklərinin Ön Asiya ərazilərində ilkin məskunlaşması yenə də siyasi məqsədlə yaxın dövrə, m.ö. 680-677-ci illərə təsadüf edildiyi göstərilmişdir [4, s. 269-271; 11, s. 232-235]. Bu yenə də rus siyasi oyunu ilə bağlı tarixi saxtalaşdırmaq qəsdinin faktları kimi özünü təqdim edir.

Ümumiyyətlə Sak tayfalarının tarixinə diqqət etdikdə, biz bu istiqamətdə xeyli tədqiqat əsərləri ilə rastlaşırıq ki, onlar istər Herodot, Strabon, K.Ptolomey kimi antik müəlliflərin, istərsə də qədim türk-Azərbaycan yazılı abidəsi "Avesta"da bir türk tayfası kimi göstərilməklə, burada tarix m.ö. III minilliyin sonu II minilliyin əvvəllərinə aid olaraq göstərilir. Sual oluna bilər, necə olub ki, Sak türkləri, Zərdüştlüyün dini kitabı "Avesta"da yer alıb?

**Saklarda qədim türk mifoloji inanclaı**

Biz atarixi qaynaqları araşdırarkən Sak türklərindəki **Sax** Tanrı inancının olduğunu görürük. Aşağıda bu mifoloji inancdan danışarkən, bu haqda ətraflı məlumat verəcəyiz. Bu inanc həm də **Sax, Suriyaş** adlanırdı ki, Sak türklərinin mifoloji inanclarında bu işıq, odla bağlı olaraq "Günəş Allahı" mənasında mifoloji inanc kimi Zərdüştlük dinində də öz yerini almışdır. Bizim fikrimizcə Zərdüştlük dinində bu oda, günəşə sitayiş Asmaq türklərindən, bundan sonrü isə bu inancı yaşadan Sak mifik inancından Zərdüştlüyə adlamışdır. Şamanizmdə xüsusi yeri olmuş bu inanc, saklardan bu dinə təsir gücündə olmuş, onu formalaşdırmış, şamanizmdə ayrıca yer almışdır. Sak türklərində göstərilən **Sax-Suriyaş** Günəş Tanrısı və oda sitayiş As türklərindən sakların əcdadları Kassi türklərinə onlardan isə Sak tayfalarının dili və inanclarına adlamış, əcdadlardan öz varislərinə miras olaraq keçmişdir [-F.R.].

Müasir dövr istər əcnəbi, istərsə də yerli alimlərin tədqiqatlarında Sak türkləri ilə bağlı müxtəlif fikirlərə təsadüf edirik. Bu yazılarda İ.M.Dyakonov, V.V.Struve, B.B.Piotrovski, E.İ.Krupnov, T.A.Trafimov, N.V.Fedorov, V.İ.Avdiev, L.M.Levina, Q.V.Ksenfontov, Q.A.Melikişvili, Q.Q.Qeorqadze, B.A.Litvinski, E.A.Qrantovski kimi əcnəbi alimlər əsasən sakların tarixləri məsələsinə toxunurlar. Burada da göstərilən müəlliflərin əksəriyyəti bu tayfanı siyasi məqsədlə o dövr [m.ö. III minillikdə] tarix səhnəsində olmayan "irandilli" tayfalar olaraq göstərmişlər. Onların əsərlərində Sak tayfalarının mifoloji inanc məsələsinə aid bəzi fikirlər məhdud şəkildə yer almışdır [1, s. 27-33, 61-65; 9, s. 71-168; 11, s. 45-51, 114-119 ].

Burada Midiya tarixindən bəhs edən rus müəllifi İ.M.Dyakonov kassilərdə Şukamuna, Şimaliya, Kaşşu, Harbe, Şixu, Sax/Şuriaş, Qidar, Kamulda, Mirizir, İmmiriya, Kiur kimi Tanrı adlarını göstərir. Bu tanrılardan yalnız **Sax/Suriyaş** Tanrısı Sak türklərinin mifoloji inancı kimi onların məişətində yer alır və o "İşıq Allahı" olaraq qeyd edilir [4, s. 129-132].

Naxər-Naxçıvan ərazisində m.ö. V-IV minilliklərdə məskun olub, tarix səhnəsində proseslərə qoşulan **Sak** türklərinin mifoloji baxışlarında, əcdadları Kassi türklərindən onlara adlamış həm günəşlə bağlı **Sax** Tanrısı [Şuriaş da adlanmışdır], həm də Şixu kimi, Ay Tanrısı mifoloji inancı yer almışdır. Mifə dair yazılarda yenə də Sax Tanrısı Misir mifində ulduzları idarə edən Tanrı kimi göstərilmişdir [4, s. 130-131; 14, s. 627; 15, s. 419;]. Lakin biz Naxçıvan ərazisi coğrafi adlarına diqqət etdikdə burada Ərsaq, Disak, Saki, Sakat, Ağsaq, Ərəfsaq kimi təkcə 45 məntəqə adına təsadüf edirik ki, bu mifoloji inancın izləri adlarda özünü saxlamaqdadır. Azərbaycan coğrafi adlarında da Saqatar, Saqoaqan, Saxil, Saxalabaran kimi xeyli adlara təsadüf edirik [2, s. 83- 85] ki, bu adlar da mifoloji inancı özündə qorumaqdadır. Bu gün aktiv və passiv fondda olan bu adı daşıyan 45 etnooykonim bu adlar Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan ərazilərində sakların yerli sakinlər olduğunu tam sübut edir. Bununla bərabər, ərazidəki bu mifoloji adlar bir daha bu inancın Azərbaycan-türk mifoloji inancı olmaqla bu ərazi adlarında qaldığını tam olaraq təsdiq edən əsl mənbə yerindədir.

Sak tayfaları haqqında araşdırmalar əsasən B.Ə.Budaqov, Y.B.Yusifov, Q.A.Qeybullayev, M.M.Seyidov, A.N.Bağırov, İ.Q.Əliyev, A.S.Sumbatzadə S.Y.Babayev, T.M.Əhmədov kimi Azərbaycan, Tahsin Ünal, F.Kırzıoğlu, Abdülhalik Bakir, Ahmet Altıngök kimi Türkiyə alimlərinin yazılarında geniş yer almışdır. Yüzdən yuxarı alimin əsərlərində qeyd edilən bu tayfaların Dəclə və Fərat çayları sahillərindən Ön, Kiçik və Orta Asiya, Ural, Volqaboyu ərazilərindən Çin səddinə qədər Şu türkləri ilə ittifaqda yayımı, "Şu Saka" dastanında onların birliyinin tarixi faktları kimi özünü sübut edir. Lakin bir çox yazılarda isə bu ad, bəzən də onun daşıdığı mifik inanc burada hər hansı bir fikrin təsdiqi üçün nümunə kimi verilmişdir [Ətraflı bax, 19, s. 139-180].

Qeyd edək ki, bu tayfaların mifləri məsələsindən bəhs olunmasa da, türk müəllifi Faruq Demirtaş öz tədqiqatlarında Sak tayfalarını Ağsaqlılar və Qarasaqlılar yazılışında bir çox türklərlə ittifaqından geniş bəhs etmiş, saqların Oğuz boyları Qınıq, Kayı, Qarakeçili, Qızılkeçili tayfaları daxilindəki yerinə dair gərəkli elmi fikirlər söyləməklə, tarixi faktlar göstərmişdir [5, s. 576-594].

Bütün bunlara baxmayaraq, biz bir qrup tədqiqatlarda sakların mifoloji inanc düşümü və ayinləri ilə bağlı müəyyən tarixi məlumatlarla da qarşılaşırıq. Görkəmli Türk alimi F.Kırzıoğlu Kur-Araz ətrafında məskunlaşmış sakların "Sakalar" kimi birliyindən bəhs etməklə bərabər, onlarda İyun ayında "Saka-Bayramı" keçirildiyini, bu bayramda isə, oda sitayiş etdiklərini xüsusi vurğulamışdır. Müəllif, bu bayramın bütün sak tayfalarında eynilə təkrarlandığını, məişətlərində od, atəş, tonqal qalamaq kimi müəyyən ayinlərlə icra olunduğunu qeyd edir. O, Araz boyunda Sak tayfalarının dəfn adətlərinin də bütün saklarla eyni olduğu haqda məlumat verir. Bununla bərabər müəllif, əsərdə bu adətlərin Şumer-Sak, Urmiya, Van ətrafında aparılmış arxeoloji nümunələrdən əldə edilən nəticələrdə də eynilə yer aldığına xeyli tarixi faktlar əsasında aydınlıq gətirmişdir [7, s. 31-35, 51, 188-199, 204 ].

Əcnəbi tədqiqatçısı Boys Merinin bu mifoloji inancla bağlı fikirləri də, elmi cəhətdən xüsusi əhəmiyyət daşıyır. O, özünün tədqiqatlarında vavilonlarda Şamaş Tanrısının **Sax** Tanrısının təkrarı olduğunu və bu tanrılar mifinin Cənub Azərbaycan [kitabda Luristan] ərazisi qayalarında təsvir olunduğunu göstərir. Bununla yanaşı müəllif, ərazidəki keramika və bronzadan hazırlanmış mədəniyyət nümunələrində də bu mifoloji inancın öz əksini tapdığını göstərir. Bu faktlarla bərabər, əsərdə Zərdüşt dini ehkamlarının yaradılmasında da bu mifin işarələrlə təkrarının xüsusi qeyd edildiyi göstərilir. Boys Meri, bu kitabında tarixi əhəmiyyətli bir faktı da qeyd edərək, farsların yerli tayfalar deyil gəlmə oluqlarını yazır. O, Cənub Azərbaycanda atəşpərəstlik dini ehkamların və ayinlərin yaradılmasından sonra farsların bu ərazilərə gəldiyinə elmi faktlar göstərir. Bu tarixi faktlar müqabilində müəllif öz gəldiyi nəticəni son olaraq bu cür tamamlayır: "**Zərdüşt dini ehkamları yarandıqdan sonra farslar bu ərazilərə gəldi. Burada "ari"lər-farsların ilkin mədəniyyətinin əsasında türk-bozqır-mədəniyyəti durur ki, bunu unutmaq olmaz**" [3, s. 41-47, 62-69].

Təbii ki, bu fakt bir daha ərazilərimiz mifoloji inanc və digər fars mədəniyyətinin olmadığını, bu mifoloji inancının Asər türklərinin Asmaq tayfa inancından Zərdüştlüyə adladığını, türk mifoloji inancının varislərində də təkrarını tam olaraq sübut edir. Onlar ermənilərlə eyni mənşəyə malik olmaqla [Abdullayan, Nəvahəndiyan (fars), Manandyan, Barsekyan (erməni)- F.R. ], bu ərazilərə "gəlmə" tayfaılar olduqları xeili mənbələrdə öz əksini tapır [19, s. 62-69]. Əgər bu tarixi faktlara diqqət etsək, Bütöv Azərbaycan ərazilərindəki qədim mədəniyyət və mifik inanclar, Azərbaycan türklərinə aid olmuş, onların əski mifik inancları sonralar erməni, fars, gürcülərin mifoloji inanclarında da yer almışdır.

Biz yuxarıda da qeyd etdik ki, Kassi türklərində m.ö. V minillikdə Şaqaraktu-Şuriaş adda çar adı ilə də qarşılaşırıq. Bu istiqamətdə tədqiqatlar aparan görkəmli alim Q.Qeybullayev Kassi türklərindən bəhs edərkən, onlarda **Sax** Tanrısının adını da qeyd edərək, bu mifoloji inancın **Suriyaş** da adlandığını qeyd edir. İstər mifologiyaya, istərsə də toponimikaya dair özünün tədqiqat əsərlərində Azərbaycan xalqının etnogenezi məsələsinə, bəzən şəxs-antroponimik adlarda mövcud miflərə toxunan Q.Qeybullayev, prototürk tayfaları ilə bağlı xeyli məsələlərə toxunmaqla, **Sax [Şuriaş]** Tanrı mifoloji inancının Sak tayfalarının əcdadı olan **Kassi** türklərindən öz varisləri **Sak** türklərinə "Suriyaş-"Günəş allahı" kimi adladığını ayrıca qeyd etmişdir .O, bu sözün kassilərin dilində **"Günəş Allahı"** mənasında olub onlardan öz varisləri Sak tayfalarının mifinə də eyni inancda adladığını yazmışdır. Bununla bərabər bu mifik baxışlara bir qədər də geniş yanaşan müəllif, öz tədqiqatlarında dil faktlarına istinadn adın **"Şuriaş allahının Uti allahına xeyir gətirən qulu"** mənasında olduğunu göstərmişdir. O, bu qədim türk mifini müəyyən istiqamətlərdən izah etməklə yanaşı, qədim türk Sax,

Süriyaş, mifləri ilə odla, günəşlə bağlı adların tədqiqində, onların mənalarının izahında daha çox mifoloji faktlara istinadlar etmişdir [8, s. 61-63].

M.Seyidov da yazılarında bu mifoloji inanclara geniş yer vermişdir. Onun yazılarında da biz, “Şuriaş” allahına baxışları məsələsinə toxunduğunu görürük. Əsərdə müəllifin bu mifoloji inanca verdiyi izahların burada bir qədər fərqli yer aldığını görürük. M.Seyidovun yazılarında **Sak** tayfa adı və onların məişəti və inanclarında **Sax-Suiyaş-Günəş Allahı** olduğunu qeyd edir. Bununla yanaşı, o, **Sax-Şuriaş** günəş Tanrısını kassilərdə göstərməklə bərabər, həm də bu Tanrını Sak tüklərinin miflərində yer alan tanrıların **Anası** kimi qeyd etmişdir. **Sax/Saq** Tanrısını **Umay** ana mifi ilə birgə “işıqla” bağlı izah edən M.Seyidov, onların hər ikisinin “uşaqları qoruyan ilahə olduğunu” yazır. Burada Sak türkləri **Ağsak, Qarasaq** kimi göstərilməklə, **Aqsak-Yüksək Ülgenə** tapınan, **Qara Saq**-Şimalda yaşayan **güclü Saq** olaraq izah edilir. M. Seyidov digər bir kitabında ayrılıqda **Saq** sözünü “kədər” mənasında da izah etmiş, daha sonra isə, bu sözə həm də “işıq” mənasında yanaşmaqla türk miflərindəki yerinə toxunub **Saqər** sözünü “İşığa tapınan ər” mənasında açıqlamışdır [21, s. 24-25, 35, 43-47]. Qeyd edək ki, müəllif burada xeyli mənbələrə və tarixi faktlara istinadən öz fikirlərini elmi yöndən izah etməyə çalışmış və gərəkli elmi nəticələr əldə etmişdir. Bu istiqamətdə dünya mifinə dair mənbələrə diqqət etdikdə, biz burada ayrıca Kas türklərinin inancında yer alan **Sax** Tanrısı mifoloji inancına təsadüf edirik. Bu Tanrı “ulduzların çarı” olaraq **Yunan** mifində, **Saximoti-“**xəncərli Tanrı” kimi **Yapon** mifində, **Saxlis Anqelozi-**“Ailəyə hakim**”** olan Tanrı kimi **gürcü** mifində yer alması faktları ilə qarşılaşırıq. Bununla bərabər, **Saxyaday-Noyan-Od Tanrısı** ailəyə, onun ocağına, “od ruhlarına hakim” olan Tanrı kimi **Buryat** türklərinin mifində də yer alır. Burada **Saxada Noyon** Tanrısı “torpağın böyük oğlu” eləcə də “səmanın gecə ulduzu” kimi ortancıl oğul, **monqollarda** şamanizmlə bağlı torpaqla suyun ayrılmasından doğulan **Od Tanrısı** olaraq verilir. Bu qoca od Tanrısı **Saxyadayın** arvadı isə, **Sanxalan xatun** idi və onlar birlikdə “müqəddəs od” adlanmaqla hər bir ailənin ocağındakı odu qoruyurdular. Mənbədə bu ad həm də **Saqara-Saxara** və **Saiya** yazılışlarında Hindistanda **Od** Tanrısı olaraq qeyd edilir [15, s. 396, 418-419, 477].

Biz bu miflərdəki zaman fərqinə diqqət etsək, göstərilən mifin yunan, yapon, gürcü, monqol, buryat kimi miflərdə yer alması, bizim fikrimizcə qədim türk mifoloji inancının təsiri ilə bağlı olmuşdur. Belə ki, qədim Kassi türklərinin m.ö. VI-V minilliklərdə tarix səhnəsində olduğu dövrü, onların İkiçay arasına, Şumer vəs. ərazilərə yayımını nəzərə aldıqda, göstərilən xalqların hələ tarix səhnəsində xalq şəklində olmadığı elmi faktlarla ortaya çıxır. Bu faktlara istinad etdikdə isə, göstərilən yunan, yapon, gürcü, monqol, buryat kimi xalqlardakı mövcud olan miflərin qədim türk mifoloji inanclarından onların miflərinə adladığı zaman fərqi ilə tam olaraq öz təsdiqini tapı. Bu bir daha türk mifoloji inancının qədimliyi ilə bərabər qeyri millətlərə təsirini sübut edir.

Ensiklopedik əsərdə yer alan bu miflərdən göründüyü kimi, Rus siyasəti yenə də bu qədim mifi tamamilə türk inancından uzaqlaşdırmağa çalışmış, yalnız əhalisi az olan buryat və monqollara aid etmişlər. Lakin biz bilirik ki, şimalda yerləşən Yakut türklərində atəşpərəstlik, şamanizm mövcuddur və onlar özlərini bu gün də **Saxa** adlandırırlar ki, bu mif eyni adda Kas türklərində m.ö. V minillikdə mövcud idi və o **Günəş işıq** Tanrısı idi [8, s. 60-63; 4, s. 130-131].

Bu istiqamətdə mənbələrə müraciət etdikdə biz, Sufizm-Şamaçılıq-atəşpərəstliyin Azərbaycan xalqına məxsus olmaqla m.ö. II minillikdən başlandığını görürük. Sonralar bu mifoloji inanc, m.ö. XII yüz ilin sonlarından Zərdüştlükdə yer almiş, şaman sufilər ağ geyimdə məbədlərə getmiş, burada od tonqalı ətrafına fırlanmaqla, insanın Tanrı və kainatla vəhdətini təbliğ etmişlər [14, s. 460].

Bütün bura qədər göstərilən bu tarixi faktları və bu mifoloji inancın zaman fərqləri ilə yayım arealına diqqət etdikdə, biz m.ö. V minillikdən türk mifik təfəkküründə yer almış **Sax-Suriyaş**-günəş od Tanrı mifinin türk inancından öz varisləri Sak türklərinə və Zərdüştlüyə, eyni zamanda xeyli sayda digər xalqların mifoloji inanclarına adladığını görürk. Bütün bu göstərilən faktlar mövcud mifoloji inancın ilk olaraq Azərbaycan türklərinə aidliyini, onun ətraf xalqların da mifinə təsirini tam olaraq təsdiq edən tarixi faktlardır. Biz ümumtürk coğrafi arealına diqqət etdikdə, burada Sak tayfa adının Sak-Sax yazılışında areal türk toponimikasında təkrarını görürük. Mənbədə bu tayfa adı və mifinin Saqay, Saqam, Saxar, Saqaz, Saqız, Saxqi, Saqna, Sakan, Sakapa, Sakar, Sakmara, Saki, Saxab, Saxara, Saxarsa, Şaqan, Şakka, Şakra kimi 200-ə yaxın adlarda qalması faktları [12, s. 30- 57, 98, 106-107, 114-115, 148 və s.] ilə qarşılaşırıq. Bu faktlar bir daha, mövcud tayfa adı və mifinin qədim türklərə məsusluğunu tam olaraq təsdiq edir.

Əgər Orxon-Yenisey abidələrinə diqqət etsək, burada da Sakiş, Sokak coğrafi adlarında bu tayfa adı qalmaqdadır [18, s. 387]. Azərbaycan toponimik sistemində də Sakar, Saqikal, Şaqax, Şakər, Şəkərbay, Şəki, Şəkili kimi 29 etnooykonimin olduğunu görürük [2, s. 83, 85, 109-111]. Biz təkcə Naxçıvan ərazisində Zak, Zax, Saxavəng, Saki, Saxlı, Ərsaq, Saxat, Ağsaq [2 kənd], Ərəfsaq [4], Sisakan, Sakil, Saqazur, Saqat, Sanqo, Çakni, kimi 51 məntəqə adı-etnooykonim və 3 mahal adına rast gəlirik [6, s. 67-183; 16, s. 17-35].

Xüsusi olaraq qeyd edək ki, tərəfimizdən bu adların qədim türk sözlükləri ilə etimoloji izahları verilməklə, onlarda həm tayfa adının, həm də mifoloji inanc mövcudluğunun yer alması faktlar əsasında tam təsdiq olunmuşdur [19, s. 139-179]. Bütün bu mənbələrin məlumatları, bir daha qədim Naxçıvan-Naxər ərazisində Sak tayfalarının m.ö. V-IV minilliklərdən sıx şəkildə məskun yerli xalqlar olduqlarını, məişətlərində özlərinə məxsus mifoloji inasnclar daşıdıqlarını da tam sübut edir.

Biz digər prototürk coğrafi adlar sisteminə nəzər saldıqda, Türkiyə ərazisi toponimik sistemində Sak, Sakça, Sakyol,Saka, Sakabaşı, Sakaköy, Sakal, Sakar, Sakarça, Sakarlık, Sakarya kimi təkcə 33 məntəqə adına təsadüf edirik [22, s. 42]. Bunula bərabər "Dünyanın kiçik Atlası"nda biz türk tayfaları və dövlətləri coğrafi adlarında bu miflə bağlı xeyli toponimlərə rast gəlirik. Burada qədim torpaqlarımız olan gürcü, erməni, fars əraziləri və Orta Asiya, Yakut, Nen, Çuvaş, Ural tatarları və b. ərazilərdə biz Saqa, Saqər, Sakuz, Saqcay, Sakar, Saki, Sakçu, Sanqar, Sak-Kel, Saqsay kimi xeyli məntəqə adı-etnooykonimə təsadüf edirik [12, s. 38-39, 49-57,60, 98] ki, bu mövcud mifoloji inancın yayım arealının tarixi sübutlarıdır.

Yeri gəlmişkən burada bir məsələni də oxucuların diqqətinə çatdırmağı elmi baxımdan gərəkli hesab edirik. Yuxarıda qeyd etdiyimiz adlar içərisindəki Saxavəng, Zakavəng kimi saklarla bağlı adlara qoşulan "**vəng**" sözü qədim türklərdə mifik inanc və türk tarixi ilə bağlı **yazılı daşlar-Bəngü taşlar məbədləri** idi. Müasir dövrümüzdə, bu gün də belə Kəlbəcər rayonu ərazisindəki **Xudavəng** məbədi, **Xuda** inancı ilə bağlı yazılı daşları qoruyan məbəddir. Bir faktı da qeyd edək ki, 1981-ci ildə Kəlbəcər bölgəsinə Levçay kən sakini 74 yaşlı Əsəd kişi, bu məbədin də yazılı daşlarının ermənilər tərəfindən 1965-1970-ci illər Matanadarana aparıldığını söylədi [-F.R. ]. Təkcə Naxçıvan ərazisindəki **Qızılvəng,** Culfa rayon ərazisindəki **Süzütvəng, Gülnəzərvəng** abidələrindən 1960-1980-ci illər arasında yüzdən artıq yazılı daş ermənilər tərəfindən İrəvana daşınmışdır [Şəxsi müşahidə-F.R.].

Tarixi mənbələrə diqqət etdikdə biz, 1895-ci ildə rus arxeoloqu N.V.Fedorovun Naxçıvanın **Qızılvəng** ərazisindən m.ö. II minilliyə aid olan qızıl sikkələr aşkar etdiyini görürük. Bununla yanaşı, burada başında uzun şişuclu papaq, əynində çuxaya bənzər geyim, şalvar və belində qurşaq insan heykəli və s. xeyli sayda mədəniyyət nümunələri, o cümlədən də yazılı daşlar aşkar etdiyi də qeyd edilir. Bu əşyalar Moskva Dövlət Tarix Muzeyinə aparılır, sonralar isə muzeydə yalnız kişi heykəli saxlanılır və qalmış əşyalar, yazılı daşlar yoxa çıxır [13, s. 17-18]. 1919-cu ildə buradakı qədim arxeoloji mədəniyyət nümunələrimiz talan edilməklə, guya "Qafqaz muzeyinə", Rusiya, Gürcüstan, Ermənistanın "tarix muzeylərinə" tədqiqat üçün daşınmış, sonralar isə bu əşyalar da yoxa çıxmışdır. Ərazidəki ən qədim yazılı daşların toplandığı vənglər-Bəngü daşların məbədləri talan edilməklə, qədim türk yazıları Ermənistana daşınmış, sonra bu yazılar "erməni abidələri, yazıları" kimi kitablara salınaraq beynəlxalq ictimaiyyətə təqdim olunmuşdur. Bu proseslərdə xristian alimlərinin fəal iştirakı müşahidə edilirdi ki, bu rus siyasi oyununun Azərbaycan tarixi və mifoloji inancına vrduğu əsl zərbə idi.

Bununla bərabər bir tarixi faktı da qeyd edək ki, Naxçıvan əhalisinin **Tenqri-Tanrıçılıla** bağlı hələ də ibadət etdikləri və Altayda da eynisi mövcud olan **Tək Əl** və xaç əşyaları, yazılı daşlar Naxçıvandan adı gizli saxlanılan erməni "tarixçisi" tərəfindən Eçmiədzin kilsəsinə aparılmışdır. Biz bütün bunlara dair yetərli mənbə faktları göstərmişik [20, s. 141-146.].

**Nəticə**

Bütün bu tarixi faktları ümumiləşdirib, nəticə olaraq qeyd edə bilərik ki, Sak türkləri m.ö. V minillikdən tayfa kimi formalaşmağa başlamış, bu tarixi dönəmdə öz əcdadları Kassi türklərinin inancında yer alan inanc tanrıları onların mifoloji baxışlarına da adlamışdır. İstər əcdadları Kassi mifoloji inancları, istərsə də Sak tayfalarına adlamış mövcud inanclar, sonrakı minilliklərdə tarix səhnəsində yer alan digər prototürk tayfalarının da mifoloji inanclarına təsir etmişdir. Tarixi faktlar əsasında yuxarıda göstərdiyimiz bu mifoloji inanclarla bağlı adlar, bir daha bunun bir türk mifoloji inancı olduğunu tam olaraq təsdiq edir. Əgər "Şu Saka" dastanını xatırlasaq Sak türklərinin Şu türkləri

ilə bir ittifaqda şimala doğru yayımı, bu inancın qədim Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan ərazilərindən digər ərazilərə yayımını bir daha təsdiq edən tarixi faktlardır.

## ƏDƏBİYYAT


1. Авдиев В.И. История древнего Востока. Москва: Высшая школа, 1970, 612 с.;
2. Azərbaycan SSR-nin qısa toponimlər lüğəti. Bakı: ASE Baş redaksiyası. 1986, 114 s.
3. Бойс Мери. Зороострийцы: Верование и обычаи. Москва: Наука, 1987. 303 с.
4. Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. Москва: Наука, 1956, 485 s.
5. Faruq Demirtaş. Osman devrində Anatoluda Kaylar//Belleten türk tarih kürümü. Ankara: 1948, III c., № 7 s. 576-594
6. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
7. Kırzıoğlu F.Yukarı Kür ve Çoruk boylarında Kıpçaklar. Ankara: Türk Tarih Kurumu Basımevi, 1992, 278 s.
8. Qeybullayev Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 278 s.
9. Георгадзе Г.Г. Хетты и хурриты по древнехеттским текстам.//Вестник древней истории №1, 1969, с. 71-168.
10. Геродот. История. Пер. и примеч. Г.А Стратановского. Ленинград: Наука, 1972, 599 с.
11. Грантовский Э.А. Ранняя история иранских племен Передней Азии. Москва: Наука, 970, 393 с.
12. Малый атлас мира. Москва: Картография ГУГК, 1985, 331 с.
13. Məmmədov R.S. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 157 s.
14. Мифы народов мира. Энциклопедия. Т. I, Москва: Советская энциклопедия. 1987, 671 с.
15. Мифы народов мира. Энциклопедия. Т. II, Москва: Советская энциклопедия.1988, 719 с.
16. Naxçıvan sancağının müfəssəl dəftəri Bakı: Sabah, 1997, 336 s.,
17. Птолемей Клавдий. Руководство по географии / Пер. К.С. Апта и В. В. Латышева//Античная география. Москва: Географиздат, 1953, 368 с.
18. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı: Yazıçı, 1993, 400 s.,
19. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. II c. Bakı: ADPU, 2017, 588 s.
20. Rzayev F.H. Xaçı yaradanlar və Xaçmataq türkləri (Naxçıvan materialları əsasında) // Kıbatek XIII. Edebiyyat Sempozyumu. Adana- Antakya: Nobel kitabevi. 2007, s. 141-146
21. Seyidov M.M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.
22. Tuncer Gülensoy. Türkçe Yer Adları Kılavuzu. Ankara: Bizim Büro Basımevi 1995, 103 s.
23. Всемирная история. Т. I, Москва: Госиздат,1956, 746 с.



***AMEA Naxçıvan Bölməsi**
***İncəsənət, Dil və Ədəbiyyat İnstitutu***
***E-mail. firudinrzayev@gmail.com***

**Firudin Rzayev**


## GODS ASSOCIATED WITH THE ANCIENT SAKI PROTOTURKS, TRACES IN THE TOPONYMS OF NAKHCHIVAN REGION


The article talks about the traces of the ancient god names Sax, Şixu, Suriyaş, Sax-Suriy in the toponyms of the Nakhchivan area, which have a special place in the ancient Saki mythical thinking, and which are included in the mythological beliefs of the Saki. The history of these god myths, mentioned in ancient writings, dates back to BC. Based on the 4th millennium, the toponymic names of the area have survived to this day. The inclusion of this ancient myth in the name of Saki tribe in historical processes, its connection with Nakhchivan has not yet been studied by Azerbaijani and Turkish scientists and the names have not been explained. In the article, the presence of this god's name in the oikonym, hydronym and oronym layers of toponyms of the ancient Nakhchivan area is confirmed on the basis of linguistic and historical facts.

Etymological explanations of toponyms related to this myth in the geographical area of Nakhchivan are given in the study. The fact that the names of the gods Sax, Şixu, Suriyaş remain in the names related to the proto-Turks proves the antiquity of this mythical belief. The place of this name in Azerbaijan, Nakhchivan, Turkiye, Altay and other Turks is justified by scientific facts in the article.


**Keywords:** *Sax, Suriyaş, Şixu, Azerbaijan, Nakhchivan, Turkiye, oikonym, oronym, hydronym.*

**Фирудин Рзаев**

# СЛЕДЫ ИМЕН БОГИНИИ СВЯЗАННЫЕ С ПРОТОТЮРКОВ САКИ НА ТЕРРИТОРИИ НАХЧЫВАНСКИХ ТОПОНИМАХ

В статье говорится о следы имен древних богов Сах, Шухи, Сурияш, Сах-Сурияш в мифологических верованиях тюрков Саки на территории Нахчыванских топонимах. Истории имени этих мифов опираясь к IV тысячелетиям до н.э. оставили свои следы в древних летописях до наших дней оставили свои имени в топонимах этой территории до нашего дня. В исторических процессах места этого мифа в называние имени племена Саки, связы его с Нахчыванской земли, до тех пор не были исследованы азербайджанскими и тюркскими учеными и не анализированы значении этих имен. В статье имен этих богов на территории Нахчыванских ойконимах, оронимах и гидронимах подтверждены на основе исторических фактов.

В исследованиях объясняется значении топонимов связанные с этой мифологией на географических ареалах Нахчывана. Существование топонимы с именем богов Сах, Шухи, Сурияш, подтверждает древность веровании этого мифа. Места этого имена в тюрках Азербайджане Нахчывана, Турции , Алтай, в том числе в других тюрках обосновывается научными фактами.

**Ключевые слова:** *Сах, Шухи, Сурияш, Сах-Сурияш Азербайджан, Нахчыван, Турции, Алтай,ойконим, ороним, гидроним.*

*AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 25.02.2025**
**Son daxilolma tarixi:18.03.2025**